# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# Q Ə R A R I

**Bakı şəhəri** **№ 261/5** **14 aprel 2015-ci il**

**«Auditorların və mütəxəssislərin ixtisasartırma kurslarının təşkili və keçirilməsi qaydaları» haqqında**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 22 yanvar tarixli 260/6 saylı "Auditorların və mütəxəssislərin ixtisasartırma kurslarının təşkili və keçirilməsi qaydaları haqqında" qərarının icrasını təmin etmək məqsədilə, Auditorlar Palatası Şurasının irad və təklifləri nəzərə alınaraq yenidən təkmilləşdirilməsi barədə Auditorlar Palatasının Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədov və Auditorların ixtisasartırma komitəsinin sədri A.Qurbanovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov, E.Hacıyeva) və Auditorların ixtisasartırma komitəsi (A.Qurbanov) tərəfindən hazırlanmış "Auditorların və mütəxəssislərin ixtisasartırma kurslarının təşkili və keçirilməsi qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** «Auditorların və mütəxəssislərin ixtisasartırma kurslarının təşkili və keçirilməsi qaydaları»na uyğun olaraq, müvafiq tədbirlərin görülməsinin təmin edilməsi Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, E.Hacıyeva) və Auditorların ixtisasartırma komitəsinə (A.Qurbanov) tapşırılsın.

**3.** Bu qərarın mətninin və «Auditorların və mütəxəssislərin ixtisasartırma kurslarının təşkili və keçirilməsi qaydaları»nın Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**